*2018-ci ildə Qədim dövr Azərbaycan ədəbiyyatı şöbəsinin əməkdaşları* 1 problem, 1 mövzu, 2 iş və 10 mərhələ üzrə elmi-tədqiqat işləri ilə məşğul olub. Şöbədə kitab, monoqrafiya, məqalə və tezislərin sayı birlikdə 42 olub. O cümlədən 4 məqalə və 5 tezis xaricdə nəşr edilib. Dərslik, elmi-kütləvi nəşrlərin sayı isə 3 olub.

Şöbənin müdiri, *f.e.d., prof. İmamverdi Həmidov* Azərbaycan Misir ədəbi əlaqələrinə dair Eyn Şəms (Qahirə) Universitetində "Şərq araşdırmaları" mövzusunda Beynəlxalq elmi konfransda (1.04.2018), Azərbaycan ərəb ədəbi əlaqləri tarixi üzrə "Dəmənhur Universitetində (Misir, Dəmənhur) , "Üsluibiyyət araşdırmaları" mövzusunda beynəlxalq elmi konfranda (3.10.2018), Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələsinə dair XVIII Türk Tarix Konqresində (Ankara, 3.10.2018), XI-XII əsrlərdə Azərbaycanda ədəbiyyata dair "Müasir Azərbaycan tarixi Şirvanşahlar dövlətinə səyahət" mövzusunda beynəlxalq elmi konfransda (23.10.2018) məruzə edib.

2018-ci ildə "İslam hikmətindən secmələr (Bakı, "Elmi və təhsil, 2018) kitabı çapdan çıxıb. Kitabın tərtibçisi və ön sözü ərəb dilinə çevirəni *professor İmamverdi Həmidov*, ön sözün müəllifi *akademik İsa Həbibbəyli*, redaktoru *akademik Vasim Məm*mədəliyevdir.

Kitabda İslam hikmətindən nümunələr toplanıb. Onlar Qurani-Kərimin ayələrindən, peyğəmbər hədisləri və Əli ibn Əbu Talibin kəlamlarından seçilib.Toplanmış nümunələrdə ilahi qüdrət, elm, əxlaq, dostluq , xeyirxah əməllər, idarəetmə, ədalət, vətən və şəhidlik haqqında didaktik fikirlər ifadə edilib.

Kitabdakı ərəb dilində "İslam mədəniyyətinin paytaxtı qədim və müasir Naxcıvan", habelə, "Elm və təhsil haqqında", "Ataya-anaya hörmət və tərbiyə haqqında", "Ədəb qaydaları, dostluq və tərbiyə haqqında", " Əxlaq və xeyirxah əməllər haqqında". "İdarəetmə və ədalət haqqında", "Vətən və Şəhidlik zirvəsi haqqında" bölmələr və xülasə verilib.

Eyni zamanda prof. *Məmmədhəsən Qəmbərlinin* "Elmi axtarışlar, Araşdırmalar, Təhlillər kitabı" (Bakı, 2018, 376 s.) çap olunub. Kitabda 19 məqalə toplanıb. Həmin məqalələrdə ərəb ədəbi-bədii qaynaqlarında türk qövmünə münasibətdən, hz. Məhəmmədin (s.a.s.) etnik kimliyindən, Xaqani yaradıcılığında hikmətdən, dünya müdriklərinin elmə, əxlaqa, dövləti problemlərə baxışının hikmət meyarlarından, XX əsrin birinci yarısında ərəb ədəbi tənqidinin inkişaf yollarından bəhs edilib, müqayisəli təhlillər aparılıb, habelə, kitab müəllifinin elmi fəaliyyətinin mətbuatdakı ifadəsindən nümunələr verilib. Nəşrin redaktoru prof. İmamverdi Həmidov, rəyçisi f.e.d. Mahirə Quliyevadır.

2018-ci ildə *prof. İmamverdi Həmidovun* (tərcümə qrupunun rəhbəri və kitabın redaktoru) və *Elnarə Zeynalovanın* (tərcümə qrupunun üzvü) iştirakı ilə “Oman haqqında məqalələr” toplusu (Bakı, 2018, 14 m.v.) çapdan çıxıb. Kitabda qədim tarixə malik ərəb ölkəsi olan Oman sultanlığı, onun dövlət quruluşu, ölkənin təbii sərvətləri, adət-ənənələri, qədim sənətləri, folkloru, sənət adamları, musiqisi, teatrı, poeziyası, mətbuatı, ədəbi şəxsiyyətləri, habelə, təhsili haqqında məqalələr toplanıb. Məqalələr ərəb dilindən tərcümə edilib.

İl ərzində yerli və beynəlxalq elmi konfranslarda *f.ü.f.d., dos. Lalə Əlizadə 3, f.ü.f.d., dos. Ülkər Məmmədova 1, f.ü.f.d., dos. Könül Hacıyeva 7, f.ü.f.d., dos. Nailə Tağıyeva 1, e.i. Elnarə Zeynalova 1* məruzə edib.

Şöbə əməkdaşları “Xaqani Şirvaninin həyat və yaradıcılığı” mövzusunda kollektiv tədqiqat işini tamamlayıb. 25 m.v. həcmində monoqrafik işin icraçıları AMEA-nın müxbir üzvü *Nüşabə Araslı, prof. İmamverdi Həmidov, prof. Məmmədhəsən Qəmbərli, prof. Baloğlan Şəfizadə və prof. Xanəli Babayev, dos. Lalə Əlizadə, dos. Könül Hacıyeva, e.i. Elnarə Zeynalovadır. Fİl.ü.f.d., dos. Ülkər Məmmədova* “Azərbaycanlı məvali şairlər” adlı monoqrafiyasını başa çatdırıb.

Bu ildə prof. *İmamverdi Həmidovun* yerli və xarici mətbuatda 6, *dos. Leyli Əliyevanın* 2, *dos. Lalə Əlizadənin* 6, *dos. Ülkər Məmmədovanın* 4, *dos. Könül Hacıyevanın* 21, *böyük elmi işçi Nailə Tağıyevanın* 4, *elmi işçi Elnarə Zeynalovanın* 4 elmi məqaləsi çap olunub.

2018-ci ildə prof. *İmamverdi Həmidov* Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederasiyasının Fəxri fərmanı, Eyn Şəms Universitetinin (MƏR, Qahirə şəhəri) “Təşəkkür və Təqdir” lövhəsi, *prof. Məmmədhəsən Qəmbərli* Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederasiyasının Fəxri fərmanı, *prof. Baloğlan Şəfizadə* Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederasiyasının Fəxri fərmanı, *dos. Leyli Əliyeva* Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederasiyasının Fəxri fərmanı, Azərbaycan Respublikası “Avropa nəşr mətbuat evi”nin qərarı ilə ən yaxşı vətənpərvər tədqiqatçı alim Qızıl medalı, ümummilli lider *Heydər Əliyevin* 95 illiyi münasibətilə *“Heydər Zirvəsi”* medalına layiq görülüb.

Magistraturanı başa vurmuş *Könül Əliyeva* magistr dissertasiyasını müdafiə edib.


Hazırladı:

***Əlizadə Əsgərli***
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun
elmi işlər üzrə direktor müavini, filologiya
elmləri doktoru, professor.

***İmamverdi Həmidov***
Qədim dövr Azərbaycan ədəbiyyatı şöbəsinin Müdiri,
filologiya elmləri doktoru, professor.